# Yüksələn türk harmoniyası

**Mərkəzi Asiya xalqları arasında etnogenetik mənsubiyyət və mədəni-tarixi inkişaf baxımından azərbaycanlılara ən yaxın xalqlardan biri türkmənlərdir. Hər iki xalq qədim Oğuz tayfasına mənsub olmaqla ortaq etnik-mədəni arxetip əsasında formalaşmışdır.**



Oğuz boyları IX-X əsrlərdən başlayaraq müxtəlif səbəblərlə - köç, müharibə və yeni torpaqlar axtarışı nəticəsində fərqli bölgələrə yayılmışlar. Yəni bir qismi Azərbaycana, bir qismi Türkmənistana, digərləri isə Anadolunun və Mərkəzi Asiyanın başqa hissələrinə köçmüşdür. Geniş coğrafiyaya yayılmalarına baxmayaraq, xalqlar özlərinin dil, mədəniyyət, adət-ənənə və etnik kimliklərini qoruyub saxlamışlar. Yəni zaman keçsə də, coğrafiya dəyişsə də, onların türk kimliyi və Oğuz kökü itməyib.

**(davamı 6-cı səhifədə)**



# Yüksələn türk harmoniyası



(əvvəli 1-ci səhifədə)

Azərbaycanlılar və türkmənlər arasında dil qohumluğu türkologiyanın təsnifat sistemində oğuz qrupu türk dilləri çərçivəsində izah olunur. Bu dillər morfoloji və fonetik cəhətdən bir-birinə yaxın olub, ortaq leksik və sintaktik quruluşa malikdirlər. Mədəni sahədə də Azərbaycan və Türkmənistan arasında bənzərliklər çoxdur. Xüsusilə xalq ədəbiyyatında, dastanlarda ortaq mifoloji motivlər, oxşar qəhrəman surətləri və bənzər əxlaqi dəyərlər özünü göstərir. Məsələn, həm "Kitabi-Dədə Qorqud", həm də türkmən eposları bu baxımdan ortaq mədəni irsin bariz nümunələridir.

Azərbaycan ilə Türkmənistan arasında diplomatik münasibətlər 1992-ci il iyunun 9-da qurulmuşdur. Lakin 1990-cı illərin əvvəllərində iki ölkə arasında siyasi əlaqələrin inkişafı bir sıra subyektiv və struktur xarakterli səbəblərdən istənilən səviyyədə olmamışdır. Xüsusilə, Xəzər dənizinin hüquqi statusu və enerji resurslarının bölünməsi ilə bağlı fikir ayrılıqları münasibətlərə mənfi təsir göstərmişdir. Trans-Xəzər Qaz Kəməri layihəsinin reallaşmaması da həmin gərginliyin nəticələrindən biri kimi qiymətləndirilir. Lakin 1994-cü il oktyabrın 26-27-də Türkmənistanın Müstəqillik Günü münasibətilə Aşqabadda keçirilən tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin iştirakı mühüm diplomatik hadisə kimi yadda qalmışdır. Bu səfər iki ölkə arasında siyasi dialoqun təşəkkül tapmasında və münasibətlərin normallaşmasında əlamətdar mərhələ hesab olunur.

1996-cı il martın 18-19-da Türkmənistan Prezidenti Saparmurat Niyazovun Azərbaycana rəsmi səfəri ikitərəfli münasibətlərin institusional bazasının formalaşmasında mühüm rol oynamışdır. Səfər çərçivəsində tərəflər arasında bir sıra strateji əhəmiyyətli sənədlər imzalanmışdır. Bunlar arasında Azərbaycan Respublikası ilə Türkmənistan arasında Dostluq və Əməkdaşlıq haqqında Müqavilə, Azərbaycan Prezidenti Heydər Əliyev və Türkmənistan Prezidenti Saparmurat Niyazovun imzaladığı Bakı Bəyannaməsi, təhsil sahəsində əməkdaşlıq haqqında saziş, Azərbaycan və Türkmənistan Xarici İşlər nazirlikləri arasında məsləhətləşmələrə dair protokol, konsulluq konvensiyası, dəniz-ticarət gəmiciliyi sahəsində əməkdaşlıq haqqında Saziş və digər sənədlər yer almışdır.

Hüquqi baza ölkələr arasında münasibətlərin sistemli şəkildə inkişafı üçün mühüm əsas yaratmışdır. İmzalanan sənədlər yalnız siyasi və təhlükəsizlik sahələrini deyil, həm də iqtisadiyyat, nəqliyyat, təhsil və diplomatik əməkdaşlıq kimi çoxşaxəli istiqamətləri əhatə edərək, qarşılıqlı fəaliyyətin hüquqi bazasını çərçivəsini müəyyən etmişdir. Münasibətlərdə mühüm dönüş nöqtəsi isə 2000-ci illərin ortalarından sonra baş vermişdir. Azərbaycanın Türkmənistandakı səfirliyi 2002-ci ilin avqust ayında fəaliyyətə başlamış, 2008-ci ildə isə Türkmənistanın Bakıdakı diplomatik missiyası yenidən bərpa edilmişdir. 2007-ci ildə Qurbanqulu Berdiməhəmmədovun Türkmənistanda hakimiyyətə gəlişindən sonra ikitərəfli əlaqələr yeni mərhələyə qədəm qoymuşdur. Bu dövrdən etibarən münasibətlər konstruktiv siyasi dialoq və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq üzrə inkişaf etmişdir. Türkmən səfirin Bakıya qayıtması, yüksək səviyyəli qarşılıqlı səfərlərin intensivləşməsi və Xəzər dənizində yerləşən "Dostluq" yatağının birgə istismarı ilə bağlı razılaşmalar müsbət dinamikanın təzahürüdür.

Müasir dövrdə də Azərbaycanın regional müstəvidə əməkdaşlıq etdiyi ölkələrdən biri Xəzərin o tayında yerləşən Türkmənistan Respublikasıdır. Dövlətlərarası münasibətlərin strateji xarakter alması məhz tarixi, etnik və mədəni yaxınlığın davamıdır. Humanitar əməkdaşlıq, təhsil və mədəniyyət sahələrində imzalanan ikitərəfli razılaşmalar ortaq mənəvi-mədəni irsin inteqrativ dəyərləndirilməsinə şərait yaradır. Son səkkiz ildə Azərbaycan və Türkmənistan arasında iqtisadi-ticarət əməkdaşlıq yeni mərhələyə qədəm qoymuşdur. Bu dövrdə imzalanan ikitərəfli müqavilələr, o cümlədən nəqliyyat-logistika sahəsində atılan konkret addımlar ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur. Xüsusilə, 2018-ci ildə istifadəyə verilmiş Ələt Beynəlxalq Dəniz Ticarət Limanı ilə Türkmənistanın Türkmənbaşı Beynəlxalq Dəniz Limanı arasında qurulan funksional əlaqələr yükdaşımaların operativliyini artırmaqla yanaşı, daşımaların müddətini və xərcini də ciddi şəkildə azaltmışdır. Geostrateji mövqeyi və nəqliyyat-tranzit imkanlarının genişlənməsi Azərbaycanı Türkmənistan üçün Avropaya çıxış baxımından əsas keçid nöqtəsinə çevirmişdir. Xüsusilə, Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti, türkmən məhsullarının Türkiyə və Avropa bazarlarına, eləcə də əks istiqamətdə daşınması üçün etibarlı və səmərəli logistik dəhlizdir. Eyni zamanda bu infrastruktur Türkmənistan üçün deyil, Türk Dövlətləri Təşkilatının digər üzvləri - Özbəkistan, Qırğızıstan və Qazaxıstan üçün də alternativ və rəqabətqabiliyyətli yükdaşıma imkanları yaradır. BTQ dəmir yolu xəttinin strateji üstünlüyü ondan ibarətdir ki, o, Avrasiyanın şərqindən qərbinə qədər olan məsafədə yükdaşıma müddətini təqribən 15 günə endirmişdir. Bu isə eyni marşrut üzrə dəniz nəqliyyatı ilə müqayisədə iki dəfə sürətli, hava nəqliyyatı ilə müqayisədə isə iki dəfə daha qənaətcil logistika modeli təqdim edir. Beləliklə, Azərbaycan və Türkmənistan arasında formalaşan nəqliyyat-tranzit tərəfdaşlığı regionun nəqliyyat xəritəsində strateji inteqrasiyanı gücləndirməklə yanaşı, Türk Dövlətləri Təşkilatının üzv ölkələrinin də regional və qlobal iqtisadi inteqrasiyasına töhfə verir.



2017-ci ildə Azərbaycan ilə Türkmənistan arasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamənin imzalanması münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu təsdiqləyən mühüm siyasi sənəddir. Bəyannamə tərəflər arasında siyasi, iqtisadi və humanitar sahələrdə qarşılıqlı etimad və əməkdaşlığa əsaslanan münasibətlərin hüquqi-siyasi çərçivəsini müəyyən etmişdir. Həmin mərasimdə Prezident İlham Əliyev demişdir: "Əsrlər boyu türkmən və Azərbaycan xalqları bir yerdə yaşamışlar, əməkdaşlıq, dostluq etmişlər. Dövlətlərarası münasibətlər bu möhkəm təməl üzərində qurulub".

Azərbaycan və Türkmənistan beynəlxalq təşkilatlar - BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı və digər çoxtərəfli platformalarda da bir-birini dəstəkləyir, ortaq maraqları müdafiə edən təşəbbüslər irəli sürürlər. Belə əməkdaşlıq regional və beynəlxalq müstəvidə qarşılıqlı siyasi koordinasiyanı və diplomatik həmrəyliyi gücləndirir.

İkitərəfli iqtisadi əməkdaşlıq da son illər ərzində nəzərəçarpacaq dərəcədə genişlənmişdir. 2022-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanla Türkmənistan arasında ticarət dövriyyəsi təqribən beş dəfə artmışdır ki, bu da iqtisadi əlaqələrin dinamik inkişafının göstəricisidir. 2024-cü il ərzində isə Türkmənistandan Azərbaycana 303,5 milyon ABŞ dolları dəyərində idxal əməliyyatları icra olunub. Azərbaycan regionun mühüm tranzit ölkəsi kimi həm Şərq-Qərb, həm də Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır. Bu məqsədlə ölkə ərazisində dəmir yolu, avtomobil və hava nəqliyyatı infrastrukturuna dair bir sıra əsas layihələr uğurla icra edilmişdir. İnfrastruktur təşəbbüsləri yalnız Azərbaycanın nəqliyyat potensialını artırmaqla kifayətlənmir, həm də region dövlətləri, o cümlədən Türkmənistan üçün təhlükəsiz və səmərəli logistika alternativi yaradır.

İyulun 16-da Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana rəsmi səfəri və Prezident İlham Əliyevlə keçirdiyi görüş Türkmənistan-Azərbaycan münasibətlərinin dərinləşməsi baxımından mühüm əhəmiyyət daşıyır. Ölkənin beynəlxalq münasibətlərdə uzunmüddətli neytral mövqeyi, hərbi-siyasi bloklara qoşulmamaq siyasəti və "daimi neytrallıq" statusu ölkənin xarici siyasət arxitekturasının əsas dayağıdır. Buna baxmayaraq, türkdilli dövlət kimi Türkmənistan Türk Dövlətləri Təşkilatına hələlik yalnız müşahidəçi statusunda qatılır. Halbuki Azərbaycan və Türkiyə ölkənin təşkilata tamhüquqlu üzv olmasını regional inteqrasiya və əməkdaşlıq baxımından zəruri sayır. Eyni zamanda, Avropa İttifaqı və Türkiyə Türkmənistanın zəngin qaz ehtiyatlarının Azərbaycan ərazisindən keçməklə Avropa bazarlarına çıxarılmasında maraqlıdır. Bu təşəbbüsün reallaşması üçün əsas texniki məsələ - Xəzər dənizinin dibi ilə boru kəmərinin çəkilməsi həllə də aktuallığını saxlayır. Qurbanqulu Berdiməhəmmədovun son Bakı səfəri göstərir ki, Azərbaycan və Türkmənistan regional sabitlik, qarşılıqlı hörmət və suveren qərarvermə prinsipləri əsasında əməkdaşlığı daha da genişləndirmək əzmindədir. Bu münasibətlər həm regional sabitliyə, həm də Avrasiya miqyasında enerji və logistik təhlükəsizliyə mühüm töhfələr verə biləcək strateji dialoq platformasına çevrilmək potensialındadır.

**Fidan ƏLİYEVA,**
**"Respublika".**